Heydər Əliyev - 101

UOT 94(479.24)

XATİRƏ AĞAYEVA
AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix Institutu
Böyük elmi işçi, tarix üzrə fəlsəfə doktoru
TarixVeOnunProblemleri@gmail.com

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN SİYASƏTİNDƏ QƏRBİ AZƏRBAYCAN MƏSƏLƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/59-62

Tarixdən məlumdur ki, Azərbaycanın həmçinin Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinləri Azərbaycan türkləri olduğu halda, ermənilər isə bu ərazilərə Çar Rusiyasının təşəbbüsü ilə tarixin müəyyən mərhələlərində xarici ölkələrdən köçürülərək gəlmə bir xalqdır. Qərbi Azərbaycanın İrəvan əyalətində qədim dövrdə, erkən və orta əsrlərdə mövcud olmuş türk mənşəli toponimlərin Azərbaycan türkcəsində olması bir daha Azərbaycan türklərinin Qərbi Azərbaycan ərazisinin qədim və yerli sakinləri olduğunu və orada əzəldən yaşadıqlarını sübut edir. Araşdırma nəticəsində aydın olur ki, ermənilər Qərbi Azərbaycanın İrəvan əyalətinə və b. ərazilərə gəlmə olduğundan eyni zamanda orada yaşayan yerli əhalinin Azərbaycan türkləri olduğundan oradakı (İrəvan) qədim yer adları ermənicə deyil, məhz Azərbaycan türkcəsindədir.

Açar sözlər: Heydər Əliyev, Qərbi Azərbaycan, qaçqınlar, Qarabağ, qələbə, icma.

Giriş. Milli müstəqilliyimizin ən böyük nailiyyətlərindən biri xalqımızın tarixi yaddaşını çoxdan narahat edən problemləri, həqiqətləri öyrənib dünya ictimaiyyətinə çatdırmaq üçün tarixlərimizə böyük imkanların verilməsidir. Bu gün tarixçilərimiz ulu öndər Heydər Əliyevin "Bizim tariximiz bizim üçün ibrət dərsi olmalıdır" metodoloji mülahisəni rəhbər tutaraq tariximizin "qara ləkələrinin" mənbəyi sirrini böyük professionallıqla işləyirlər. Deyirlər ki, tarixin qanunları təkrar olunur. Bu qanunlar ona görə təkrar olunur ki, böhranlı anlar yeni, qeyri-ordinar siyasəti meydana gətirən xüsusi əxlaqi keyfiyyətlər tələb edir. Ermənilərin 1000 illər boyu öz tarixi-etnik torpaqlarında yaşadığı azərbaycanlılara qarşı mərhələ-mərhələ gerçəkləndirilən soyqırım, repressiya, deportasiya yolları ilə nail olduğu hər azəri türklərini həmin ərazilərdən zorakılıqla çıxarması sərsəm "Ermənistan" ideyasının gerçəkləşməsi və uydurma sübutların dünyada qəbul edilmələrinin, qarşılığında isə bizim xalqımıza qarşı törədilən genosidlər qabağında dünya ictimaiyyətinin susmasının nəticəsidir. Əslində ermənilərin buradakı iddialarının kökü çox qədimə gedir.

Qərbi Azərbaycan. İndiki Ermənistan adlanan ərazi tarixi Azərbaycan torpaqları olmuşdur. Bura sadəcə olaraq xəritələrdə, dərs kitablarında Qərbi Azərbaycan kimi qeyd olunmalıdır. Bu torpaqda yaşayan Azərbaycan xalqı – türklər zaman-zaman erməni-rus təcavüzünə məruz qaldı. Rus imperiyasının Zaqafqaziyaya ayağı dəyəndən Qərbi Azərbaycandan türklərin deportasiyalarının "serialı" başlandı. Yalnız XX əsrdə dörd dəfə (1905-1906, 2108-1920, 1948-1953, 1988-1991) türklər dədə-baba yurdlarından – tarixi-etnik torpaqlarından zorla deportasiya olunmuşlar. Qərbi Azərbaycanda ən sonuncu türk kəndi Nüvədi (Meğri rayonu) 1991-ci il avqustun 8-də çıxarılmaqla türksüz Ermənistan yaradıldı. Bu gün tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaucanlı qalmadı. Halbuki keçən əsrin əvvəllərində ermənilər bu ərazidə barmaqla saymaq olardı. Erməni mənbələrinin yazdığı məlumata görə 1931-ci ildə İrəvan şəhərində yaşayan 11920 nəfər əhalinin 7331-i türk-azərbaycanlı, 4484-ü erməni, Basarkeçər (Vardenis) rayonu ərazisində yaşayan 4376 nəfər əhalinin 4367-si azərbaycanlı, 9-u erməni (cəmi 9 nəfər erməni), Çəmbərək (Krasnoselo) rayonunda yaşayan 3252 nəfərin 2373 azərbaycanlı, 880 nəfər erməni, Vedi rayonunda yaşayan 4765 nəfərin 3394 azərbaycanlı,

1371-i erməni, Paşalı rayonunda (Əzizbəyov, Vayk) rayonundakı 2775 nəfər əhalinin 1903-ü azərbaycanlı, 8229-si erməni, Amasiya rayonunda 4871 nəfər əhalinin 3451-i azərbaycanlı, 1420 nəfəri erməni olmuşdur [1, 166].

Rusiya Azərbaycanı işğal etdikdən sonra (1828 – Türkmənçay müqaviləsi) əslində Azərbaycanı quberniyalara böldü (Bakı, Gəncə, İrəvan və Tiflis quberniyaları). Burada erməni adlanan toplunun Ermənistan quberniyası yox idi. Quberniyalar qəzalara (uyezdlərə), qəzalar da mahallara bölündü. Zəngəzur uyezdi də o zaman Gəncə quberniyasının qəzalarından (uyezdlərindən) biri idi (Gəncə də dəyişdirilib Yelizavetpol deyilən, dilə yatmayan bir adla əvəz olunmuşdu). Elə bu vaxtdan türk mənşəli coğrafi adların dəyişdirilməsi prosesi başlandı. Ermənilərin İran və Türkiyədən bura axını gücləndi. Ermənilər bu ərazini - Qərbi Azərbaycanı özlərinə vətən seçdilər. Ermənistanın tarixi erməni (hay) tarixi kimi tarix kitablarına yazıldı, Ermənistanın coğrafiyası zaman-zaman eybəcərləşdi, ermənileşdi, Ermənistan azərbaycanlılarının tarixi unuduldu, unutduruldu. Müasir Azərbaycan ərazisindən kənar ərazidə yaşayan azərbaycanlıların tarixi demək olar ki, elmi dövriyyədən kənarda qaldı (2, 18-21).

Heydər Əliyev fenomeni. Heç şübhəsiz ki, Azərbaycançılıq ideyası milli həmrəyliyin qarantı kimi, Heydər Əliyevi həmişə düşündürmüşdür. Belə bir şəraitin yetişməsi müəyyən obyektiv və subyektiv faktorlardan asılıdır. Uzaqgörən siyasətçi və strateq kimi Heydər Əliyev müvafiq şəraitin yetişəcəyinə əmin idi. O, bir analitik olaraq sovet rejimində baş verən dərin struktur böhranın real səbəblərini təhlil edərək başa düşürdü ki, vaxtıilə dünyaya meydan oxuyan Sovetlər İttifaqı uçurum qarşısındadır və bu uçurum dərinləşdikcə xalqların sovet rejimindən xilas olması vaxtı sürətlə yaxınlaşmaqdadır. Heydər Əliyev əmin idi ki, 1989-cu ildən başlayaraq cəmiyyətə yuxarıdan "təklif olunan" yenidənqurma ideyası süquta düçar olacaqdır (3, s.322).

Ali Sovetin qərarları yerlərdə yerinə yetirilmirdi. "İslahatçı M.Qorbaçovun "sosializmi yeniləşdirmək" konsepsiyasının aqibəti rejimin özü kimi uğursuz oldu, bu utopiya real gerçəklikdə nəinki özünü doğrultmadı, dövlətçiliyin dağılmasını daha da sürətləndirdi. "Kremlin mətbəxinin" siyasi oyunlarını yaxşı dərk edən Heydər Əliyev bilirdi ki, ölkəmizdə kommunizm eksperimenti, sosialist seçimi özünü doğrultmayacaq, çünki güc sayəsində yaranmış və qorunan respublikalar ittifaqı tükənmişdir.

Bununla yanaşı o, vətənində baş verən dağıdıcı hadisələri diqqətlə izləyir, bunları ürək ağrısı ilə duyurdu. Məsuliyyətsiz liderlər sanki xalqın mənlik şüuru ilə eksperimentlər aparırdılar. Xalqının belə rəzil vəziyyətə düşməsinin real səbəbləri üzərində düşünür, cəmiyyəti böhran halından qurtarmağın yollarını axtarırdı.

O, xalqını müdrikcəsinə inandırırdı ki, millət öz hüquqlarını anlayıb qoruya bilirsə, belə halda ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur.

Ulu öndərin vaxtilə "91-lər"ə cavabında Heydər Əliyev xalqla rəhbərlik arasında qarşılıqlı anlamın vacibliyini vurğulayır, dərin sosial-psixoloji uçurumun olmasını xalq və cəmiyyət üçün böyük fəlakət hesab edirdi. Bu səbəbdən də Heydər Əliyevin müstəqillik konsepsiyasında struktur elementi kimi "sosial sabitlik" anlayışı ön plana çəkilir və cəmiyyəti belə ideyaya inanmasına çalışırdı ki, çətinliyin başlıca səbəbi bizim müharibə şəraitində olmağımızdır.

Odur ki, hakimiyyətə gəldiyi ilk gündən ulu öndər ölkədə sosial sabitlik strategiyasının həyata keçirilməsini, milli faktor kimi qiymətləndirmiş, bunu bir mühüm səfərbəredici amil kimi ön plana çəkmişdir (4, 45-48).

Heydər Əliyev müstəqilliyin qorunması və möhkəmlən-dirilməsi naminə fəaliyyət göstərilməsinin məqsədi və məna-sını Azərbaycan xalqının mədəni və intellektual inkişafında görürdü. Biz cəsarətlə deyə bilərik ki, Heydər Əliyevi müstəqilliyin tam inkişafına yönəlmiş siyasət fəlsəfəsi özü bir milli dəyərdir. Dahi Platonun belə bir kəlamı: müdrik adama qanun lazım deyil, çünki onun zəkası vardır.

Heydər Əliyev və Qərbi Azərbaycan. "Keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İqdırın qarşısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İqdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər on nəfərdən dördü - beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir, Naxçıvandandır. (Müzəffər Gəncə bildirdi ki, mən gəncəliyəm, babam oradandır). Necə olub ki, sən Gəncədən İqdıra

gedib çıxmısan? Çünki o məntəqə, o bölgə azərbaycanlılar üçün - Türkiyədə azərilər deyirsiniz - azərilər üçün həmişə bir məskən olubdur. Bunların tarixi kökləri var. İqdırın Azərbaycana daha əziz olması və sevilməsi, bax bu tarixi köklərə əsaslanır. Siz gəncsiniz, kitablar oxuyursunuz, mən də bunların bir hissəsini kitablardan bilirəm. Amma bir hissəsini şəxsi həyatımdan bilirəm."-deyən Ulu Öndər Qərbi Azərbaycan üçün mühüm işlər görüb (5).

Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə hüquqi-siyasi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948- 1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"», 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.

27 may 1997-ci ildə Azərbaycanın Milli Bayramı-Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitq söyləyən Ümümmili Lider Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından danışarkən demişdir: "O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistanın çox gözəl iqlimə-yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub-malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdi" (6, 123-125).

Azərbaycan xalqının mədəniyyət beşiyi olan Qarabağın erməni işğalçılarından azad edilməsi, qərbi azərbaycanlıların öz ata-baba yurduna qaytarılması Heydər Əliyevin ümumi fəaliyyətinin əsas istiqamətini təşkil edirdi. Bununla bağlı Ulu öndər Heydər Əliyev çıxışlarının birində qeyd edirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyə böyük ümidlər bəsləyirəm".

Nəticə. Ata nəsihətini yerinə yetirən Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin canı, qazilərimizin qanı, ordumuzun şücaəti hesabına 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. Artıq Azərbaycan xalqı öz əzəli-əbədi torpaqlarına sahibdir. 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiyası, təxminən 30 il davam edən işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Qarabağın azad edilməsi ilə Azərbaycanın xarici və daxili siyasətində yeni prioritetlər meydana çıxdı. Azərbaycan Ordusu Qarabağı və Şərqi Zəngəzuru azad etməklə, artıq soydaşlarımızın bütün tarixi ata-baba torpaqlarına qayıdışını təmin etmək üçün yol açdı. Bu ədalətli siyasətin gerçəkləşməsində dövlətimizlə yanaşı, ictimai təşkilatların da üzərinə böyük öhdəliklər düşür. Qərbi Azərbaycan İcmasının yaranma zərurəti elə bu baxımdan mühüm aktuallıq kəsb edir.

Azərbaycan xalqının tarixi yaddaşı doğma torpaqlarımıza olan sevgini hər zaman qoruyub. Bu gün Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılır. Bu vacib məsələdə 2022-ci il 3 avqust tarixində Qaçqınlar Cəmiyyətinin bazasında yaradılan Qərbi Azərbaycan İcması birbaşa Ermənistan ərazilərindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyini təmin etməkdə çox fəallıq göstərən mərkəzə çevrilmişdir. Bu İcma 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. Birliyin İdarə Heyəti beynəlxalq müstəvidə fəal iş aparır. İcmanın məqsədi tarixin müəyyən dövrlərində etnik mənsubiyyətinə görə kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların ictimai-mədəni birliyinə nail olunmaqla, ata-baba torpaqlarımıza qayıtmaq üçün onların bütün hüquqlarının beynəlxalq səviyyədə bərpası və Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı tarixi-mədəni zəngin irsinin dünya ictimaiyyətinə çatdırılmasından ibarətdir.

ƏDƏBİYYAT

1. Асадов Ф.Т. Арабские источники и тюрках раннего средневсковая. Баку, «Элм», 1993, 201 с.
2. Rüstəmov Ə.M. Ermənistan SSR Qafan, Gorus və Sisyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri (nam.dis.). Bakı, 1990, 158 s.

3. H.Əliyev. Müstəqilliyimiz əbədidir. C.VIII. B.Azərnəşr, 1998.
4. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı, "Elm və təhsil", 2019, 456 s
5. Görkəmli şəxslər qərbi azərbaycan haqqında. URL: https://anl.az/el/emb/Qerbi_Azerbaycan/fikirler.htm [20.04.2024].
6. İbrahim Bayramov. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2011, 288s.

ХАТИРА АГАЕВА
доктор философии по истории,
Старший научный сотрудник Института истории
имени Аббасгулу Ага Бакиханова НАНА

ВОПРОС ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА В ПОЛИТИКЕ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Из истории известно, что если коренными и местными жителями Азербайджана и территории Западного Азербайджана являются азербайджанские тюрки, то армяне – народ, переселенный из зарубежных стран на определенных этапах истории по инициативе царской России. Существование топонимов тюркского происхождения, существовавших в Иреванской провинции Западного Азербайджана в древности, в раннем и средневековье, на азербайджанском турецком языке, еще раз доказывает, что азербайджанские тюрки являются древними и коренными жителями территории Западного Азербайджана и имели жил там с незапамятных времен. В результате исследования становится ясно, что армяне переселились в Иреванскую область Западного Азербайджана и т.д. поскольку они не пришли на территории, в то же время, поскольку местное население, проживающее там, является азербайджанскими тюрками, древние топонимы там (Иреван) не на армянском, а на азербайджанском тюркском языке.

Ключевые слова: Гейдар Алиев, Западный Азербайджан, беженцы, Карабах, победа, община.

KHATİRA AGHAYEVA
Senior researcher of the Institute of History
named after Abbasgulu Agha Bakikhanov of ANAS, PhD

THE ISSUE OF WESTERN AZERBAIJAN IN THE POLITICS OF THE GREAT LEADER HEYDAR ALIYEV

It is known from history that while the original and local residents of Azerbaijan and Western Azerbaijan territory are Azerbaijani Turks, Armenians are a people who were resettled from foreign countries at certain stages of history at the initiative of Tsarist Russia. The existence of toponyms of Turkic origin that existed in the Iravan province of Western Azerbaijan in ancient times, in the early and middle ages, in Azerbaijani Turkish, once again proves that Azerbaijani Turks are ancient and native inhabitants of the territory of Western Azerbaijan and have lived there since time immemorial. As a result of the research, it is clear that Armenians moved to the Iravan province of Western Azerbaijan, etc. since they did not come to the territories, at the same time, since the local population living there are Azerbaijani Turks, the ancient place names there (Iravan) are not in Armenian, but in Azerbaijani Turkic.

Keywords: Heydar Aliyev, West Azerbaijan, refugees, Karabakh, victory, community.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. İbrahim Zeynalov.